Azərbaycan Respublikası

**Sabirabad rayonu İcra Hakimiyyəti başçısının**

# SƏRƏNCAMI

№ 08 «12» 02 2016-cı il

**Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanını rəhbər tutaraq**

QƏRARA ALIRAM:

1. Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, onların hüquqlarının və qanunla tənzimlənmiş maraqlarının müdafiəsi məqsədilə 7 nəfərdən ibarət Apellyasiya Şurası yaradılsın:

Apellyasiya Şurasının sədri:

| | |
|---|---|
| Həsənov Vahid İsaxan oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |

Apellyasiya Şurasının üzvləri:

| | |
|---|---|
| Bayramov Eldəniz Vidadi oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri |
| Əsgərov İlham Əlihüseyn oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |

| | |
|---|---|
| Ağayev Ağarəhim Babalı oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri |
| Yaqubov Heydar Mirzağa oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini |
| Nəsirov Cavanşir Yahya oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti Başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi |
| Əliyev Əhədağa Əhmədağa oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısının Şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi |

2. Apellyasiya Şurasına tapşırılsın ki, daxil olan şikayətlər tam və obyektiv araşdırılaraq nəticəsi barədə əsaslandırılmış şəkildə qərar qəbul etsin.

3. Apellyasiya Şurasına tapşırılsın ki, baxılmış şikayətlərin uçotunu aparsın, onları təhlil edərək icmallaşdırsın və nəticəsi barədə rayon İcra Hakimiyyətinin başçısına yarımillik və illik hesabatlar təqdim etsin.

4. Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında nümunəvi Əsasnaməsinə uyğun olaraq Apellyasiya Şurası öz vəzifələrini yerinə yetirərkən və vəzifələrini həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökümət təşkilatları, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı surətdə fəaliyyət göstərsin.

5. Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Nəsir Mirzəliyevə tapşırılsın ki, sərəncamın surətini əlavə olunmuş ünvanlara göndərilməsini təmin etsin.

6. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Nazim İsmayılov**

Azərbaycan Respublikası
**Sabirabad rayonu İcra Hakimiyyəti başçısının**

# SƏRƏNCAMI

№ 07 «12» 02 2016-cı il

**Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanını rəhbər tutaraq**

QƏRARA ALIRAM:

1. Rayon Apellyasiya Şurasının fəaliyyətinin təşkili üçün 3 nəfərdən ibarət Apellyasiya Şurasının Katibliyi yaradılsın:

Apellyasiya Şurasının Katibliyinin rəhbəri:

| | |
|---|---|
| Nəsir Mirzəliyev | - Sabirabad rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |

Apellyasiya Şurasının üzvləri:

| | |
|---|---|
| Əsgərov Raul Zakir oğlu | - Sabirabad rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin məsləhətçisi |
| Qasımov Xəyyam Şiraslan oğlu | - Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi |

2. Katibliyə tapşırılsın ki, Apellyasiya Şurasına daxil olan şikayətlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirsin.

3. Katibliyə tapşırılsın ki, Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında nümunəvi Əsasnaməsindən irəli gələn katibliyə aid vəzifələrin icrası üçün lazımi tədbirlər görsün.

4. Apellyasiya Şurasının iclasları ayda iki dəfədən az olmayaraq, zərurət yarandığı hallarda isə Apellyasiya Şurasının sədrinin razılığı ilə və ya rayon İcra Hakimiyyəti başçısının göstərişi ilə istənilən vaxt keçirilməsini təmin etsin.

5. Apellyasiya Şurasında baxılan şikayətlər barədə qəbul edilmiş qərarlar Katiblik tərəfindən kütləvi informasiya vasitələri və rayon İcra Hakimiyyəti orqanının rəsmi internat saytı vasitəsilə yayımlansın.

6. Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Vahid Həsənova tapşırılsın

**Nazim İsmayılov**